**Artıq yeni tədris ilinə start verilib. Bu tədris ili özü ilə birlikdə təhsil sahəsində bir sıra yeniliklər gətirib. Biz də 2015-2016-cı tədris ilində şagirdləri və müəllimləri gözləyən dəyişikliklərlə bağlı kiçik araşdırma apardıq.**

**Gəlin araşdırmamıza məktəb həyatına qədəm qoyan birincilərin yeniliyi ilə başlayaq.**



# Yeni tədris ilinin yenilikləri

## Yeniliklər arasında elektron qəbul, dərs müddətinin uzadılması, yeni dərslik və s. var

Aygün ƏZİZ

### ELEKTRON QƏBUL

Bu ildən etibarən birincilər sələflərindən fərqli olaraq, məktəbə elektron sistem vasitəsilə qəbul olundular. Sənədlərin qəbuluna sərf ediləcək zaman və insan resurslarına qənaət, şagird kontingentinin uçotunun sistemləşdirilməsi, məktəb haqqında məlumat əldə etmək imkanları elektron sistemin üstünlüklərindəndir. Valideynlərin bir çoxu, xüsusilə, kənd yerlərində yaşayanlar yeni informasiya-kommunikasiya texnologiyalarından uzaq olsalar da, orta məktəblərdə mərkəzləşmiş qaydada sənəd qəbulu, boş yerlərə əlavə yerləşdirmələr, məktəblərin seçilməsi kimi işlər bu il elektron qaydada aparılıb. Nazirlikdən verilən məlumata görə, 2015-2016-cı dərs ilində 150 min nəfərdən çox şagird ölkəmizin ümumtəhsil məktəblərinin I sinfinə gedəcək. Ümumilikdə isə bu tədris ilində 1 milyon 370 minə yaxın şagird təhsil alacaq.

### DƏRS MÜDDƏTİ UZADILDI

Orta məktəblə bağlı həyata keçirilən digər yenilik tətil müddətinin artırılması ilə bağlıdır. Belə ki, Təhsil naziri Mikayıl Cabbarovun imzaladığı əmrlə 2015-2016-cı tədris ilində orta ümumtəhsil məktəblərində dərs məşğələləri bu il sentyabrın 15-i başlayıb, gələn il iyunun 14-də başa çatır. Eyni zamanda orta ümumtəhsil məktəblərində tətil günlərinin vaxtı da dəyişdirilib. Belə ki, dərs ili ərzində məktəblilər payız tətilinə 16-20 noyabr tarixlərində çıxacaqlar. Qış tətili isə 27-31 yanvar tarixlərində olacaq. İbtidai siniflər üçün isə 5 günlük (1-5 may) əlavə yaz tətili müəyyən edilir. Dərs ili iki yarımilə bölünür: birinci yarımil - 15 sentyabr - 26 yanvar. İkinci yarımil - 1 fevral - 14 iyun tarixlərində olacaq.

### 4 MİLYON DƏRSLİK ÇAP EDİLİB

Yeni tədris ilində bütün məktəblilər dərsliklərlə təmin olunacaqlar. Kurikulum ilk dəfə tətbiq olunan VIII siniflər üçün 70 adda dərslik və müəllim üçün metodik vəsait çap edilib və məktəblərə paylanıb. Bu il bəzi siniflər üçün dərsliklər bütövlükdə yenilənib. Orta məktəblərin IV, VI və VIII sinifləri üçün 2015-2016-cı tədris ili üçün 141 adda 4 milyon 95 min 370 nüsxə dərslik və müəllim üçün metodik vəsait çap olunub. Qax, Zaqatala və Balakən rayonlarının gürcü dili tədris olunan məktəbləri üçün I və II sinif dərslikləri də gürcü dilinə tərcümə edilərək çap olunub. Təhsil Nazirliyi bəyan edib ki, yeni tədris ilində ümumtəhsil məktəblərinin I, II, III, V, VII, IX, X və XI sinif şagirdləri əvvəlki illərdə çap olunan və məktəb kitabxana fondlarındakı dərsliklər hesabına təmin olunacaqlar.

### 10-CU SİNİFLƏR İXTİSASLAŞACAQ

2015-2016-cı tədris ilində daha bir yenilik təmayülləşmə ilə bağlı olub. M.Cabbarovun əmrinə əsasən, bu ildən etibarən 10-cu siniflər müəyyən olunmuş qaydalar üzrə komplektləşdiriləcək və burada tədris təmayüllər üzrə aparılacaq. Hələlik pilot layihə kimi nəzərdə tutulan bu işlərin Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və Şirvan şəhərlərindən seçilmiş 50 məktəbdə tətbiq edilməsi nəzərdə tutulub. Pilot layihənin tətbiqində əsas məqsəd tam orta təhsil səviyyəsində təhsilin təmayüllərə görə təşkilini sınaqdan keçirmək, gələcəkdə həmin prosesə kütləvi keçidlə bağlı müvafiq hazırlıq işləri aparmaq və bu barədə cəmiyyətdə ictimai rəy formalaşdırmaqdan ibarətdir. Təhsil nazirinin 2015-ci il 8 iyun tarixli əmrinə əsasən, tədrisin təmayüllər üzrə təşkil olunacağı həmin təhsil müəssisələrinin təmayül sinifləri üçün tədris planları təsdiq edilib və fənn proqramları hazırlanaraq yerlərə çatdırılıb. Tədris olunacaq fənlərin sayı texniki fənlər təmayüllü siniflərdə 9, riyaziyyat-iqtisadiyyat və humanitar fənlər təmayüllü siniflərdə 8, təbiət fənləri təmayüllü siniflərdə 10-dur. Təmayül istiqamətindən asılı olmayaraq, tədris planlarında Azərbaycan dili (rus bölməsində rus dili), xarici dil, ədəbiyyat, riyaziyyat, Azərbaycan tarixi, fiziki tərbiyə, gənclərin çağırışaqədərki hazırlığı fənləri saxlanılır. Təmayül sinifləri, mövcud qaydalara uyğun olaraq, şagirdlərin sayı ən azı 20 nəfər olmaqla komplektləşdiriləcək. 2016-2017-ci dərs ilində isə qeyd olunan məktəblərə müvafiq qaydalar üzrə komplektləşdirilmiş XI siniflərində tədris təmayüllər üzrə davam etdiriləcək. Təmayül sinifləri, mövcud qaydalara uyğun olaraq, şagirdlərin sayı ən azı 20 nəfər olmaqla komplektləşdiriləcək. 2016-2017-ci dərs ilində isə qeyd olunan məktəblərin müvafiq qaydalar üzrə komplektləşdirilmiş XI siniflərində tədris təmayüllər üzrə davam etdiriləcək.

### MƏKTƏBLƏR İNTERNETLƏ TƏMİN OLUNUB

"Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq Azərbaycan Təhsil Şəbəkəsinin (ATŞ) yaradılması da davam edir. Artıq avqust ayı ərzində Bakı, Sumqayıt, Gəncə şəhərlərini, Tovuz, Bərdə, İsmayıllı və Gədəbəy rayonlarını əhatə edən 41 təhsil müəssisəsi bu şəbəkəyə qoşulub. Bu günədək ATŞ-yə qoşulmuş 2000 təhsil müəssisəsi yüksək sürətli internetlə təmin olunub. Həmin təhsil müəssisələri bir-biri və Təhsil Nazirliyinin digər qurumları ilə keyfiyyətli kommunikasiya qurmaq imkanı qazanıblar. Eyni zamanda, təhsil müəssisələrinin İKT avadanlıqları ilə təmin olunması məqsədilə əlavə olaraq, ölkə üzrə 1200 ədəd Monoblok Lenovo stolüstü kompyuteri paylanılıb.

### 2233 MÜƏLLİM İŞƏ QƏBUL EDİLİB

Bu il də Təhsil Nazirliyi orta məktəblərə və peşə liseylərinə yeni müəllimləri müsabiqə yolu ilə işə qəbul edib. Nazirlikdən verilən məlumata əsasən, müsabiqədə iştirak etmək üçün 3 min 462 vakant yerə 24 min 437 nəfər ərizə verib. Onlardan 21 min 795 nəfərin ərizəsi təsdiqlənərək müsabiqənin birinci mərhələsinə - test imtahanlarına buraxılıb. Müsabiqənin birinci yerləşdirilməsinin nəticələrinə görə, 1877 nəfər müəllim kimi işləmək hüququ qazanıb. Əlavə yerləşdirmə nəticəsində isə 356 nəfər işə qəbul olunub.

Ümumilikdə 2233 nəfər işə qəbul edilib ki, onlardan 1589 nəfərinə (71 faiz) həvəsləndirmə tədbirləri tətbiq olunub. Nazirlikdən onu da bildiriblər ki, bu il müsabiqə nəticəsində vakant yerlərin tutulma göstəriciləri ötən ilin nəticələrindən 32 faiz artıqdır. Belə ki, ötən tədris ilində işə qəbul olunanların sayı 1692 nəfər olub.

### ALİ TƏHSİLDƏ YENİLİK

Yeni tədris ilindəki dəyişikliklər ali məktəblərdən də yan keçməyib. Ötən tədris ilinin faktiki qəbuluna nisbətən növbəti tədris ili üçün bakalavriat səviyyəsinə qəbul planı 4,6 faiz artırılaraq, 39 min 497 yer (onlardan 11 799 dövlət sifarişli) müəyyən olunub. Qiyabi təhsil forması üzrə plan yerləri 77 faiz azaldılıb və bu yerlərin hesabına əyani təhsil üzrə tələbə qəbulu artırılıb. Müəllimlik ixtisasları üzrə qiyabi təhsil forması üzrə qəbul planlaşdırılmayıb. Dövlət sifarişi üzrə plan yerləri iqtisadiyyat və idarəetmə, humanitar və sosial, səhiyyə, rifah və xidmət ixtisas qruplarına daxil olan ixtisaslar üzrə azaldılıb, həmin yerlərin hesabına təhsil, texniki və texnoloji ixtisaslara dövlət sifarişi yerləri artırılıb.

Özəl ali təhsil müəssisələrinə tələbə qəbulu planı keçən ilə nisbətən 6,1 faiz artırılaraq, 6549 yer planlaşdırılıb. Bakı Asiya Universitetinin müraciətini nəzərə alaraq, bu ali təhsil müəssisəsinə qəbul planlaşdırılmayıb. Eyni zamanda, Azərbaycan Müəllimlər İnstitutunun müraciətinə əsasən, Qazax və Zaqatala filiallarına da bu il qəbul aparılmayacaq.

Geologiya (300 bal), Kompyuter elmləri (300 bal), Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi (250 bal), İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi (250 bal), İnşaat mühəndisliyi (250 bal), Nəqliyyat tikintisi mühəndisliyi (250 bal) ixtisasları üzrə müsabiqəyə ümumi balı yuxarıda qeyd olunan baldan aşağı olmayan abituriyentlərin buraxılması qərara alınıb. Növbəti illərdə belə ixtisasların siyahısı artacaq.

Ali təhsil müəssisələrində bakalavr buraxılışı olmayan ixtisaslar üzrə magistraturaya plan yerləri ayrılmayıb. Magistraturaya qəbul planı əvvəlki tədris ilinə nisbətən 167 yer artırılaraq 6492 yer (onlardan 2 522 dövlət sifarişli) nəzərdə tutulub. Orta ixtisas təhsili müəssisələrinə qəbul planı 15 min 61 yer müəyyən olunub.

Yeni tədris ilindən ali məktəblərin sırasına daha biri əlavə edilib. Prezidentin sərəncamı ilə Mingəçevir Politexnik İnstitutu və ləğv olunan Müəllimlər İnstitutunu filialının bazasında Mingəçevir Dövlət Universiteti yaradılıb.

### SABAH QRUPLARI ÜZRƏ İXTİSASLARIN SAYI ARTIRILIR

Təhsil Nazirliyi ölkənin ali məktəblərində təhsil alan tələbələr üçün SABAH qrupları üzrə baza ali təhsil müəssisələri və ixtisasların əhatə dairəsini genişləndirir. Nazirlikdən verilən məlumata görə, növbəti tədris ilindən 7 baza ali təhsil müəssisəsinin sırasına daha 4-ü - Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Rəssamlıq Akademiyası və Bakı Slavyan Universiteti də daxil olacaq. Bu, SABAH qrupları üzrə ixtisasların sayının artması ilə bağlıdır. Ötən tədris ilində SABAH qruplarına qəbul 5 ixtisas qrupu üzrə aparılırdısa, indi onların sayı 6-ya çatdırılıb.

Yeni tədris ilində SABAH qruplarında ümumilikdə 1636 tələbə təhsil alacaq. Bunlardan 755 nəfəri ötən tədris ilində, qalan 881 nəfəri yeni qəbul olunanlardır.

### TƏHSİLƏ NƏ QƏDƏR PUL XƏRCLƏNİR?

Maliyyə Nazirliyindən verilən məlumata görə, 2016-cı ildə dövlət büdcəsindən təhsil sahəsinə 1713,5 milyon manat vəsait ayrılması proqnozlaşdırılır. Bu, 2015-ci illə müqayisədə 0,1 faiz çoxdur. 2015-ci ildə dövlət büdcəsindən təhsil sahəsinə 1711,2 milyon manat vəsait ayrılması proqnozlaşdırılıb ki, onun da 1692,7 milyon manatının icra ediləcəyi gözlənilir.

2016-cı il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən xərclər üçün 5139,4 mln. manat vəsait nəzərdə tutulub ki, bu da 2015-ci illə müqayisədə 111,2 mln. manat və ya 2,2 faiz çoxdur.

Bütövlükdə həmin sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 31,6 faiz təşkil edəcək ki, bu da əvvəlki illə müqayisədə 7,8 faiz çoxdur.